AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 28.04.2016 |
| Qeydiyyat nömrəsi | 0003 |
| Adı | "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 28 dekabr tarixli 3 nömrəli qərarında dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 12.05.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201604280003 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 11.05.2016 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndini rəhbər tutaraq, "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 592 nömrəli Fərmanının 3-cü hissəsinin icrası məqsədi ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

**qərara alır:**

1. "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 28 dekabr tarixli 3 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "İnformasiya Texnologiyaları" sözləri "Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. 1.2-ci bənddə "sellülar (mobil)" sözlərindən sonra "- (texnoloji standartın adı göstərilməklə)" sözləri əlavə edilsin və həmin bənddən "3-cü nəsil (3G) mobil rabitə xidmətləri," sözləri çıxarılsın;

1.2.2. 2.2.1-ci yarımbəndin üçüncü abzasında "sellülar (mobil)" sözlərindən sonra "- (texnoloji standartın adı göstərilməklə)" sözləri əlavə edilsin və həmin yarımbəndin onuncu abzası ləğv edilsin;

1.2.3. 2.6-cı bəndin dördüncü abzasında "**Sellülar (mobil)**" sözlərindən sonra "**- (texnoloji standartın adı göstərilməklə)**" sözləri əlavə edilsin və həmin bəndin on səkkizinci və on doqquzuncu abzasları ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi

qaydaları haqqında Əsasnamə”nin 4.4-cü bəndinə əsasən, “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 28 dekabr tarixli 3 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 15 mart tarixli 0002 nömrəli qərarı ləğv edilsin.

3. Hüquq şöbəsinə tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

4. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərarın icrasına nəzarət Aparatın rəhbəri Əli Abdullayevə həvalə edilsin.

**Nazir** **Ramin Quluzadə**